LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

EU4Climate



İcra müddəti: 01.12.2018 - 31.12.2023

ŞT ölkələri:

Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

Aİ-nin maliyyə yardımı: € 8 000 000

Ümumi büdcə: € 8 000 000

İcraçı təşkilat(lar):

UNDP

Sosial media hesablarına keçidlər:

Internet səhifəsi: eu4climate.eu

Layihənin təsviri:

"EU4Climate" layihəsi Avropa İttifaqının maliyyə dəstəyi ilə BMT-nin İnkişaf Proqramı (BMTİP) tərəfindən icra edilir. Azərbaycan, Ermənistan, Gürcüstan, Ukrayna, Moldova, Belarusun iştirakı ilə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının 6 üzv dövlətində həyata keçirilən Layihə bu ölkələrdə Paris İqlim Sazişinə əsasən iqlim dəyişmələri təsirinə davamlı və aşağı emissiyalı iqtisadiyyatın inkişaf etdirilməsi məqsədini daşıyır. 2022-ci ilədək davam edəcək Layihənin əsas nəticəsi olaraq iqlim dəyişmələrinin təsirinə davamlı və aşağı emissiyalı hədəflərin Avropa İttifaqının iqlim siyasəti və qanunvericiliyinə uyğun olaraq 6 ölkənin inkişaf strategiyası və proqramına inteqrasiyasına nail olmaq planlaşdırılır.

Hökuməti və beynəlxalq ictimaiyyəti MSMET-nin tətbiq olunması barədə məlumatlandırmaq üçün güclü yerli ÖHD sistemi yaradılacaqdır. Layihə Paris Sazişinin iqtisadiyyatın müxtəlif sahələri, xüsusilə kənd təsərrüfatı və energetika sahələrində tətbiq edilməsi üçün sənaye yönümlü təlimatlar hazırlayacaqdır.

Gözlənilən nəticələr:

Görüləcək tədbirlər yeddi prioritetli nəticəyə bölünür:
-Paris Sazişinə aid “Milli səviyyədə müəyyən edilmiş töhfələr” (MMT) sənədinin icrası və yeniləşməsi;
-Əsrin ortaları üçün nəzərdə tutulan “Aşağı Emissiyaların Təminatı Strategiyasının” (AETS) tərtib olunması;
-Daxili emissiyalara gəldikdə, etibarlı ölçmə, uçot və yoxlama (ÖUY) çərçivəsinin tətbiqi;
-İqlim tədbirləri sahəsində Aİ-nin qanunvericiliyinə uyğunlaşmanın ikitərəfli sazişlərə və “Enerji Birliyi” müqaviləsinə daxil edilməsi;
-Paris Sazişinin icrası üçün sektorlar üzrə iqlim səylərinin birləşdirilməsi və sektorlara aid təlimatların yazılması;
-İqlim sərmayəsi;
-Uyğunlaşmanın planlaşdırılması: zəruri hesab edilən halda, uyğunlaşma planlarının qəbul edilməsi.